# Şəhidlər hər bir azərbaycanlı üçün müqəddəsdir

***Dölməz şəhidlərinin xatirəsini dərin ehtiramla yad etdi. Səhər saatlarında Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət etdi. Ölkədə bir dəqiqəlik sükut elan olundu. Bu tarixi günlə bağlı həmsöhbət olduğumuz insanlar öz fikirlərini bölüşdülər:***

**Cəlil Xəlilov, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik:**



– İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi şəhidləri Azərbaycan xalqının hər bir övladı üçün müqəddəsdir. Biz daim onların xatirəsini ən ali hisslərlə yad edir, qəhrəmanlıqları qarşısında baş əyirik. Prezident İlham Əliyev də dünən xalqa müraciətində şəhid balalarımızı minnətdarlıq hissi ilə yad etdi. Bildirdi ki, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin ruhu qarşısında baş əyir, onlara Allahdan rəhmət diləyirik. Dövlət başçısı, eyni zamanda, onların yaxınlarına, qohumlarına xatırlatdı ki, şəhidlərimizn qanı yerdə qalmadı.

Dövlət başçısı qeyd etdi: “Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir”.

**Üzeyir Şəfiyev, BDU-nun sosial iş kafedrasının müdiri, sosiologiya üzrə fəlsəfə doktoru:**

– Dünən Anım Günü ölkəmizdə böyük məhəbbət və ehtiramla qeyd edildi. Prezident İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi fikirlər isə hamımızın ürəyincə



oldu. Ali Baş Komandan bəyan etdi ki, erməni faşizmi məhv edilib. Bunu Azərbaycanın qəhrəman, fədakar oğulları edib. Ancaq bu gün erməni faşizminin təzahürləri hələ də qalmaqdadır və bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün.

Prezident bildirib: “Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və qələbənin rəmzi olan “Dəmir yumruq” yerindədir, bunu heç kim unutmasın!”

***Söhbəti yazdı:***
***Paşa ƏMİRCANOV, “Xalq qəzeti”***



Xalq qəzeti.- 2021.- 28 sentyabr.- S.11.